# Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti

Ad:Elvin
Soyad: Abdulla
İxtisas: Sosial İş
Kurs: IV

Mövzu: Sosial iş və Sosial işin Tarixi

# Plan 1: Sosial İş Nədir
# Plan 2: Sosial İşin Tarixi
# Plan 3: Azərbaycanda Sosial İş




**Sosial iş** - Sosial iş cəmiyyətin problemli təbəqələrinin mənafeyi və sosial rifahı uğrunda vasitəçilik edən sferadır. Sosial iş peşəsi ilə sosial işçilər məşğul olur. Dünyada ilk dəfə "Sosial iş" proqramı Amsterdamda,sonralar isə Berlin və Londonda meydana gəlmişdir.Azərbaycanda isə Sosial iş peşəsinin tədrisinə 2005-ci ildən etibarən Bakı Dövlət Universitetində magistr pilləsi üzrə başlanılmışdır. Sosial işçilər sosial planda müdafiə edilməmiş təbəqələrin,insanların maraqlarının təmin edilməsinə və hüquqlarının müdafiəsinə yönəlmiş qanunverici aktların və dövlət proqramlarının hazırlanmasında yaxından iştirak edirlər.Sosial iş sahəsinin ilkin anlayışı və müdaxilə obyekti müraciətçidir(klient,benefisyar).Sosial işçilər müraciətçilərlə çalışır.Müraciətçi-problemli situasiyaya(çətin həyat şəraiti) düşmüş,həll yolunu tapa bilməyən şəxsdir və o,müəyyən bir mərhələdə yardım məqsədilə sosial işçiyə müraciət edir.Sosial işçi isə öz növbəsində müraciətçinin problemli vəziyyətini dəyərləndirir,problemin həlli üçün müraciətçinin də yanaşmalarına əsasən alternativ həll yolları axtarır.Problemin həlli yönündə sosial işçi müraciətçini sosial,psixoloji və ya hüquqi xidmətlərə yönəldir.Məhz bu nöqteyi-nəzərdən vurğulanır ki,sosial iş sahəsi insanlarla dövlət xidmətləri arasındakı münasibətləri əlçatan edir.Bu peşənin daşıyıcıları insanları öz potensiallarına arxalanmağa yönəldir,problemin kənar müşahidəçisi olmaqla qərarvericiliyi müraciətçinin öhdəsinə buraxır.



Aşağıda sosial işçilərin bir sıra fəaliyyət sahələri qeyd olunmuşdur:
-Ailə məsələləri üzrə məsləhətçi
-Pedaqoq
-Sosial tədqiqatçı
-Psixi sağlamlıq üzrə mütəxəssis
-Sosial işçi-gerontoloq (Ahıllarla çalışan sosial işçilər)
-Əlilliyi olan və xüsusi qayğıya ehtiyacı olan şəxslərlə çalışan sosial işçilər
-Risk qrupları ilə çalışan sosial işçilər-Bura ruhi xəstəliklərdən əziyyət çəkənlər,zərərli maddələrin aludəçisi olan şəxslər,insan alverinin qurbanları və s. kimi qruplar daxildir.
-Ekstrimal vəziyyətlərdə müdaxilə edən sosial işçilər-təbii fəlakətlərdə,hərbi-siyasi münaqişələrdə və insidentlərdə zərərçəkmişlərin rifahını təmin edir.
-Uşaq müdafiəsi sahəsində çalışan sosial işçilər
-Zorakılığa məruz qalmış şəxslərin rifahını təmin edən sosial işçilər və s.

*Sosial iş elə bir sənətdir ki, o insanların rifahı üçün sosial dəyişikliklər edir, insanlar arasındakı münasibətlərdə problemləri həll edir və insanların rifahını yüksəltmək üçün onları daxili güclərinə, öz potensiallarına axralanmağa yönəldir. Bundan başqa sosial iş, rifahlarına çatmaq üçün insanların müstəqil olmasına da şərait yaradır (Beynəlxalq Sosial İşçilər Asosasiyası 2004). Sosial işçi dövlət ilə vətəndaş arasında vasitəçilik edən şəxsdir. Vətəndaş yeni çıxan qanunları, hüquqlarını, hansı növ sosial xidmətlərin olduğunu və s bilmir. Sosial işçi ailəyə gedir, qiymətləndirir və lazım ola yerlərə istiqamətləndirir. Sosial iş geniş bir elmdir və Azərbaycanda son dövrlər inkişaf etməyə başlamışdır*






Sosial iş yaranarkən bir sıra mərhələrərdən keçmişdir.
1-ci mərhələ – qədim dövrdən başlayır. Qarşılıqlı yardım və dəstək formasında sosial işin arxaik formaları yaranmışdır.
2-ci mərhələ – XIX əsrin sonu-XX əsrin əvvəlləri sosial işin ayrıca peşə sahəsi kimi inkişaf etməsi.
3 -cü mərhələ – 80-ci illərdə sosial işin insan hüquqlarının müdafiəsi kimi dərk edilməsi formalaşır. Bununla bağlı 1948-ci ildə qəbul edilmiş Ümumdünya İnsan Hüquqları Bəyannaməsi və digər insan hüquqları sənədlərində əks olunmuş hüquqlar sosial işin fəaliyyət sahəsində xüsusi yer tutmağa başlayır.
4-cü mərhələ – 80-ci illərin sonu-90-cı illərin əvvəli sosial işin nəzəriyyəsi və təcrübəsi əsas fəaliyyətin klientin fəallaşması prinsipi əsasında keçirilməsi konsepsiyası ilə zənginləşir.
Hələ eramızdan əvvəl 1750-ci ildə qədim Babilistan hakimi Hammurapi Ədalət Kodeksini tərtib etmişdir. Qanuna daxil edilmiş əsas qanunlardan biri həbs olunan insanların bir-birinə dəstək olmalarının tələb edilməsi idi.
E.ə 1200-cü iə aid edilən qədim İudeyanın yazılı mənbələrində isə qeyd edilirdi ki, Allah yəhudilərdən yoxsul və bədbəxtlərə yardım etmələrini gözləyir. Bu qanunlar əslində ehtiyacı olan şəxslərə filantropiya (xeyriyyəçilik) əsasında yardımın göstərilməsini tənzimləyirdi ki, bu da sosial yardımın ilk formalarından birini təşkil edirdi. Filantropiya yunan sözü olub, mənası isə insan sevərik, ehtiyacı olanlara yardım mənasında istifadə olunur.

Sosial iş peşə kimi XIX əsrdə yaranmışdır. İlk dəfə 1898-ci ilin yayında Kolumbia Universitetində sosial iş üzrə sinif açıldı. İngiltərədə də sosial iş demək olar ki, Amerika Birləşmiş Ştatları ilə paralel zamanda yaranmışdır. İngiltərədə ilk sosial işçilər, xəstəxana fəaliyyət göstərən şəxslər olmuşlar.1895-ci ildə Mary Stevard Royal adlı qadın Fri xəstəxanasında çalışan ilk sosial işçi olmuşdur. Bu həmdə Böyük Britaniya tarixində bir ilk hesab edilmişdir.Avstraliyada sosial işin inkişafı İngiltərə və Amerika Birləşmiş Ştatlarına nisbətən geç baş vermişdir.

1920-ci ildə etibarən sosial işçilər yetişmiş və yalnız 1940-cı ildə Sidney Universitetində sosial iş təlimləri başlamışdır. 1865-ci ildə İngiltərədə keşiş Vilyam Buts *Xilas ordusu* adlı təşkilat yaratdı. Təşkilatı əsas fəaliyyəti kasıb və kimsəsiz insanlara yardım göstərilməsi idi. XIX əsrin sonunda və XX əsrin əvvələrində könüllü xeyriyyəçilkdən elmi və peşəkar filantropiyaya keçid baş verdi. Avropada *Sosial tibb* Amerika Birləşmiş Ştatlarında isə *Sosial iş*terminləri yarandı. 1917-ci ildə Amerika Birləşmiş Ştatlarında ilk sosial işçi sahəsində fəaliyyət göstərən təşkilat qeydiyyata alındı.1921-ci ildən təşkilat yenidən təşkil edildi və adı *Amerika Sosial İşçilərnin Assosiasiyaı* olaraq dəyişdirildi.

Azərbyacanda sosial iş ixtisası ilk dəfə 2005-ci ildə BDU magistr pilləsində açıldı. Daha sonra 2008-cu BDU və 2010 AU-da bakalavr səviyyəsində sosial iş ixtisası yaradıldı. .

Sosial işçinin ən az 4 illik bakalavr təhsili olmalıdır. Əgər diplomu yoxdursa rəsmi olaraq sosial işçi sayıla bilməz. Belə işçilərə biz para-sosial işçi yaxud da sosial xidmətçi deyə bilərik. Sosial xidmətçi kimdir? Sosial xidmətçi sosial işçinin göstərişlərini, tapşırıqlarını yerinə yetirərək ona dəstək olan şəxsdir.

Sosial işdə üç praktik səviyyə mövcüddür.

1 Mikro səviyyədə sosial iş; fərdlər, ailələr vəqruplarla iş. Bura keys menecment və terapiyalar daxildir.

2. Mezzo səviyyədə sosial iş; proqramlar və xidmələrin təşkilatlar və institutlar səviyyəsində yaradılması və idarə olunması.

3. Makro səviyyədə sosial iş; sosial planlaşdırma, dövlət səviyyəli təşkilatlar vəsosial siyasətçilər ilə sosial iş aparmaq.

